UOT 791.6

**İsrail Bəhram oğlu Məhərrəmov**
**Azərbaycan Texniki Universiteti**
**Tarix üzrə fəlsəfə doktoru**
**e-mail: rovshan5901@gmail. com**

**Rövşən Şamil oğlu Quliyev**
**Azərbaycan Texniki Universiteti**
**Baş müəllim**
**e-mail: rovshan5901@gmail. com**

# AZƏRBAYCANDA SƏNƏDLİ FİLMLƏRİN ÇƏKİLİŞİ HAQQINDA

**Xülasə:** Məqalədə 1939-1945-ci illərdə Azərbaycan operatorları və rejissorları tərəfindən Bakıda və cəbhənin qaynar nöqtələrində alman-faşist işğalçılarına qarşı mübarizədə sovet əsgərlərinin qəhrəmanlığının əbədiləşdirilməsi haqqında səhnələri əks etdirən sənədli və xronikal filmlərin çəkilişi sahəsində Bakı kinostudiyasının fəaliyyətindən bəhs edilir. Sovet hakimiyyəti və partiya rəhbərliyi çəkilmiş həmin lentlərdən əsasən təbliğat məqsədilə istifadə etmişdir.

**Açar sözlər:** Bakı kinostudiyası, sənədli film, sənədli kino, xronikal film, kinojurnal, kinopublisistika, kinoxronika, sənədli-xronikal lent

1939-1945-ci illərdə Bakı kinostudiyasında sovet adamlarının ön və arxa cəbhədə hünəri və qəhrəmanlığından bəhs edən xüsusi buraxılışların istehsalı yenidən bərpa olundu.

Sovet hökuməti təbliğat vasitəsi kimi incəsənətin digər sahələri ilə yanaşı kinoya, xüsusilə də, kinopublisistikaya daha çox üstünlük verirdi. Bunda məqsəd həm partiya və dövlət başçılarının günahı üzündən gözlənilmədən döyüş meydanına atılmış sovet ordusunun, həm də 30-cu illərin repressiyalarından cana doymuş bütün xalqın mənəvi ruhunu möhkəmlətmək idi. Xronika müharibə haqqında əhaliyə məlumat çatdırır, onun bütün dəhşətlərini gözlə görməyə imkan verir, sistematik olaraq hərbi əməliyyatların keçirilməsi, sovet ordusunun cəbhədəki döyüşləri, eləcə də arxa cəbhənin əməkçilərinin zəhmətlərini, uğurlarını əks etdirən canlı səhnələri qarşılıqlı tərəflər üçün işıqlandırılmasını təmin edirdi. Sənədli kino çəkənlər ekranda mübariz sovet adamının parlaq obrazını yaratmalı, ön və arxa cəbhələrin mənəvi-siyasi vəhdətini göstərməli, gələcək qələbə uğrunda sovet adamlarının qəhrəman mübarizəsini işıqlandırmalı idilər.

Azərbaycan SSR-in sənədli kino çəkənləri də bu müharibənin kino salnaməsinin çəkilişində öz töhfələrini vermişlər. Artıq müharibənin ilk

günlərindən mütəmadi olaraq kinojurnallarda orduya çağırış məntəqələrinin işi barədə, cəbhəyə yollanan könüllülər haqqında, cəbhəyə yola salınan əsgərlərlə vidalaşma, əmək cəbhəsində, dəzgah arxasında atalarının, qardaşlarının, ərlərinin yerini tutmuş qadınların fədakarlığından, cəbhə üçün, qələbə üçün çalışmalarından bəhs edən lentlər çəkilirdi. Hərbi şərait sənədli lent çəkənləri xeyli fəallaşdırdı, onlar mürəkkəb situasiyalarda ani olaraq çevik qərar qəbul etmək və həmin çətin şəraiti lentə almaq bacarığına yiyələndilər. Həmin dövrdə kinematoqrafçılarla respublikanın yaradıcı ziyalılarının əlaqələri və əməkdaşlığı genişləndi ki, bu da istehsal olunan məhsulun keyfiyyətinə öz müsbət təsirini göstərdi.

Bu dövrdə yazıçılardan M. Rahim, Ə. Məmmədxanlı, T. Əyyubov, bəstəkarlardan Q. Qarayev, R. Hacıyev, T. Quliyev kino işinə cəlb olunmuşdular [1; s. 45]. O vaxt çəkilən sənədli materialların bir qismi sonralar lentə alınmış bir sıra tammetrajlı bədii filmlərə daxil edilmişdi. Müharibə illərində Q. V. Aleksandrov və N. İ. Bolşakov tərəfindən çəkilən tammetrajlı “Xəzər dənizçiləri” sənədli filmi o illərin ən yaxşı filmlərindən sayılır [1; s. 45].

İlk baxışda müharibənin Bakı kinostudiyası ilə elə də əlaqəsi yox idi: bir tərəfdən onun ərazisində müharibə getmirdi, digər tərəfdən isə mərkəzi kinostudiyalardan heç biri Bakıya təxliyə olunmamışdı. Bu studiyaların hamısı Orta Asiya Respublikalarına və Qazaxıstana köçürülmüşdü və bunun da yerli kinostudiyaların inkişafında, yerli mütəxəssislərin təcrübə qazanmasında müstəsna rolu olmuşdur. Azərbaycan kinematoqrafçılarının belə təcrübə qazanmaq imkanları olmamışdır.

Müharibə illərində tarixi-bioqrafik filmlərin çəkilişi də önəmli yer tuturdu. Bu baxımdan M. Rəfilinin ssenarisi əsasında “Səbuhi” filminin çəkilişi də faşizmə qarşı ideoloji savaş məqsədi daşıyırdı. Azərbaycan filosofu, maarifçisi, milli dramaturgiyanın banisi M. F. Axundovun həyatından bəhs edəcək bu filmdə hələ XIX əsrdən rus xalqı ilə yaxın əlaqələrin və dostluğun olması fikri önə çəkilirdi. Burada çoxmillətli sovet imperiyasının əhalisinin rus xalqı ətrafında möhkəm birləşməsi ideyası da təbliğ olunurdu. Filmin quruluşçu rejissoru Rza Təhmasib idi [2; s. 71-100; 1; s. 46].

Müharibənin ilk illərində Bakı kinostudiyasının işçilərinin xeyli hissəsi döyüşən orduya səfərbər olunaraq, cəbhə səhnələrinin çəkilişində fəal iştirak etmişlər və onların çəkdikləri lentlər, üzərindən çox illər ötməsinə baxmayaraq, müharibə törədənləri nəinki canlı şəkildə ittiham edir, həm də yeni dünya müharibəsini törətmək istəyənlərə xəbərdarlıq edir, dünyanın bütün sadə adamlarını sülh uğrunda mübarizəyə səsləyir [3; s. 79].

Müharibənin ilk illərində çəkilən lentlərdə Sovet İttifaqının qəhrəman müdafiəçisinin obrazının yaradılması önə çəkilir. Bu filmlər sənədli xronika xarakterlidir.

Müharibənin ilk illərində qəzetlərdə azərbaycanlı siyasi rəhbər Kamal Qasımovun qoçaqlığı haqqında yazılar, radioda düşmənin yolunu kəsmək üçün Prut çayı üzərindəki körpünü döyüşçü yoldaşları ilə partlatması barədə reportajlar verilir. Bu epizod rejissor Ağarza Quliyev tərəfindən 1941-ci ildə müharibə mövzusuna aid ilk çəkilmiş və cəsur müharibə qəhrəmanı Kamal Qasımova həsr olunmuş "Vətən oğlu" filminin əsasını təşkil etmişdir [1; s. 48].

Onun az sonra çəkdiyi "Bəxtiyar" kinonovellası da həmin mövzuya həsr olunmuşdu. Bu filmdə Krımda alman-faşist qəsbkarlarına qarşı savaşda zabit Bəxtiyar Kərimovun qoçaqlığından bəhs olunur [3; s. 79].

Müharibənin ilk illərində Bakı kinostudiyasında tammetrajlı film kimi üç hissədən ibarət "Bir ailə" adlı vahid kinonovella da çəkilmişdi. Filmin birini tanınmış rejissor Q. V. Aleksandrov, qalan ikisini isə onun rəhbərliyi altında M. Mikayılov və R. Təhmasib çəkmişdilər. Əsərin proloqu və epiloqunda cəbhə epizodları nümayiş etdirilir, filmlər vahid qəhrəmanın simasında – arxa və ön cəbhənin timsalında vahid ailə kimi birləşdiriliblər.

1942-ci il yanvarın 5-də Cənubi Qafqazdan Krım cəbhəsinə yollanan üç çəkiliş qrupundan biri azərbaycanlılardan ibarət idi [4; s. 69]. Bu qrupa kinooperator M. Mustafayev, V. Yeremeyev və operator assistentləri K. Həsənov və Ə. Ələkbərov daxil idilər. Həmyerlilərimiz ilin ilk üç ayını mühasirəyə alınmış Sevastopolda kino çəkilişlərinə həsr etmişlər. Operator Mustafayevin birbaşa cəbhədə – döyüş meydanında çəkdiyi lentlərdən biri təkcə bir döyüşdə 360 faşisti məhv etmiş tanınmış pulemyotçu Nina Onilovaya həsr edilmişdi [4; s. 70]. Mustafayev yaralanmış pulemyotçunu müalicə vaxtı hospitalda da lentə almışdı. O, qəhrəman qızı qadınlar günü – martın 8-də də lentə almaq istəmiş, amma onun bir gün əvvəl yaralanaraq həlak olduğunu eşitmiş və ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş cəsur qızın dəfn mərasimini çəkmişdir. Mühüm sənədli-xronikal əhəmiyyət kəsb edən bu lentlərdən sonralar müharibəyə həsr olunmuş bir çox sovet filmlərinin çəkilişində istifadə olunmuşdur [5; s. 572]. Sənətşünas M. Z. Rzayeva yazır ki, azərbaycanlı operator M. Mustafayev 1942-ci ilin qışında "Sovet İttifaqı Qəhrəmanı məşhur snayper Lyudmila Pavlyuçenko ilə görüşmüş və gənc atıcılarla təlim zamanı onu lentə almışdır" [4; s. 70].

Operator M. Mustafayev Sevastopol üzərində alman aviasiyasının keçirdiyi uçuşlardan fraqmentləri, eləcə də, limanda yığılmış ərzaq və hərbi qüvvə gətirən gəmiləri də lentə alıbmış. Sonralar bu lentlərdən "Ordenli Azərbaycan" və rejissor V. Belyayevin çəkdiyi "Çyornomortsı" (Qara dənizçilər) filmlərində, eləcə də Mərkəzi studiyada çəkilmiş bir sıra sənədli filmlərdə – "Müharibənin bir günü", "Qafqaz uğrunda döyüşlər"də, cəbhə xəbərləri ilə bağlı xüsusi buraxılışlarda, "Soyuzkinojurnal"da, "Günün yenilikləri" jurnalında geniş istifadə olunmuşdu [4; s. 70; 5; s. 572].

Azərbaycanlılardan ibarət kinoxronikaçılar briqadası martın sonlarında Kerç yarımadasına göndərildi və onlar aprel-may aylarında burada çəkilişlər apardılar. Amma 1942-ci il mayın 15-də geriyə çəkilərkən bombalanma zamanı briqada Kerç boğazında batmaqdan çətinliklə qurtardı, lakin çəkiliş aparatı və 800 metrlik hazır çəkilmiş dəyərli lent dənizin sularına qərq oldu [4; s. 70].

Bakıda qısamüddətli müalicədən və azacıq dincəldikdən sonra rejissor Ə. Həsənov, operatorlar M. Mustafayev və L. Koretski birlikdə yenidən cəbhəyə yola düşdülər. Onlar əvvəlcə 416-cı, ardınca isə 223-cü Azərbaycan diviziyalarına yola düşdülər. Çəkilən lentlər sonralar müəlliflər tərəfindən "Vətən uğrunda" kinooçerkində montaj edildi [4; s. 71]. Bu çəkilişlərdə həm əsgərlərin döyüşləri və istirahəti, həm yaralıları döyüş meydanından çıxarıb müalicə üçün aparan sanitarların – azərbaycanlı qızların çətin işi, həm də Azov dənizi sahilində yerləşən Komsomolsk stansiyasının geri qaytarılması səhnələri lentə alınmışdı. Nəzərə alsaq ki, müharibədə hələ dönüş yaranmamışdı, azərbaycanlı döyüşçülərin bu stansiyanı tutmalarının əhəmiyyəti və onun sənədli lentlə təsdiq olunmasının əhəmiyyətini təsəvvür etmək çətin olmaz.

1942-ci ildə A. İvanovun rejissorluğu ilə sualtı qayıqda qəhrəman dənizçilərin müharibə illərindəki şücaətindən bəhs edən "Sualtı qayıq T-9" filminin çəkilişi başa çatdı [3; s. 79].

Kinooperator M. Dadaşov 1943-cü ildə faşist işğalçılarının Qafqazdakı vəhşiliklərini təhqiq edən dövlət komissiyasının tərkibində yazıçı A. Tolstoyun rəhbərliyi ilə Kislovodsk, Pyatiqorsk, Nalçik və s. yerlərdə çəkilişlər aparmışdı. Moskvaya göndərilən həmin lentlərdən "Ordenli Azərbaycan" kinojurnalında və "Almanların Şimali Qafqazda vəhşilikləri" adlı xüsusi buraxılışda və s. istifadə olunmuşdu [4; s. 71].

S. Bədəlov və Ə. Həsənov Donbasa gedərək düşməni təqib edən ordunun hünərini və düşmənin vəhşiliyini lentə almışlar. Operator C. Məmmədov Mərkəzi studiyanın tərkibində 3-cü Ukrayna cəbhəsində çəkilişlər aparmışdır [4; s. 71-72].

1944-cü ildə rejissor A. Dadaşovun operatorlar V. Yeremeyev və L. Koretski ilə birlikdə çəkdikləri "Qardaşlıq köməyi" filmi Azərbaycan SSR zəhmətkeşlərinin düşmən işğalından azad olunan Stavropol vilayətinin əhalisinə köməyindən bəhs edir. Stavropoldan olan uşaqların Bakıda tərbiyə olunması filmin sonunda xüsusi qeyd olunur [4; s. 75-76].

1945-ci ildə müharibənin sonunda çəkilmiş film rejissor H. Seyidzadənin "Əbədi Odlar ölkəsi" filmidir. Film haqqında Azərbaycan Respublikası Dövlət Arxivində filmlə bağlı montaj sənədlərini aşkar etmiş M. Rzayevanın əsərindən məlumat almaq olar [5; s. 78].

Bütövlükdə 1941-1945-ci illərdə Bakı kinostudiyasında 46 sənədli və xronikal film çəkilmişdir ki, onlar da aşağıdakılardan ibarətdir: "Azərbaycan

Coğrafiyası”; “Beş Dəqiqəlik Konsert”; “Bir May Bakısı”; “Cənub Sərhədlərinin Keşiyində”; “Günəşli vadinin serenadası”; “Mahnılar və Şeirlər”; “Nizami”; “Qayalardan Yol”; “Vətən Oğlu” (1941); “Azərbaycan kolxozçusu, tank briqadası yaradaq!”; “Biz Bakını müdafiə edirik”; “Bəxtiyar”; “Ordenli Azərbaycan” (№30-31. Xüsusi buraxılış); “Sovet Pəhləvanı”; “Sovqat”; “Vətənin qüdrətini möhkəmləndirək”; “Yazıçılar konfransı”; “Zaqafqaziya xalqlarının dostluğu”; “416-cı” (1942); “Almanların Şimali Qafqazda vəhşilikləri”; “Bir ailə”; “Cəbhə arxasında”; “Qayğı”; “SSRİ EA-nın Azərbaycan Filialı”; “Sualtı qayıq T-9”; “Vətən uğrunda” (1943); “Bakı döyüşür”; “Bakı neftçiləri”; “Böyük yol haqqında kino hekayəti”; “Cəfər Cabbarlı”; “Dövlət sığortası”; “Məktuba cavab”; “Qardaşlıq köməyi”; “Qaz işığı (film)”; “Qəzvinə kömək”; “SSRİ-nin himni”; “Təbriz”; “Xəzər dənizçiləri”; “Zaqafqaziya müsəlmanları ruhanilərinin qurultayı”; “Şəfa nəğməsi” (1944); “Arazın o tayında”; “General Həzi Aslanov”; “Qələbə Bayramı”; “İran”; “İran Azərbaycanının paytaxtında”; “Əbədi Odlar ölkəsi” (1945) [6; s. 41-50; 2; s. 71-100; 9; 10; 11; 12; 13].

Müharibədən sonrakı illərdə baş verən bir sıra hadisələr müharibə illərində çəkilişi nəzərdə tutulan bir sıra filmlərin istehsalatdan çıxarılmasına səbəb oldu.

SSRİ Kinematoqrafiya Nazirinin 1948-ci il iyulun 14-də 185/M-№-li əmri ilə ən ciddi şəkildə bütün ittifaqdakı kinostudiyalardan tələb olunurdu ki, bir çox ssenarilər üzrə, o cümlədən, Bakı Kinostudiyasının 4 ssenarisi üzrə çəkiliş işləri dayandırılsın və onlara çəkilən xərclər hazırlığa sərf olunduğu üçün silinsin [8; s. 168].

SSRİ Kinematoqrafiya nazirinin yuxarıda adı gedən əmrinə uyğun olaraq Bakı kinostudiyasının neftlə bağlı filmləri yenidən araşdırılmış, onların bir qisminin öz aktuallığını itirməsi, digər qisminin “o qədər də yüksək ideya-bədii səviyyədə” olmaması, “günün və kinematoqrafiyanın ortaq tələblərinə cavab verməməsi” qənaətinə gəlinmişdir [8; s. 168]. Bu filmlərin heç birinin istehsalat perspektivi olmadığı qeyd edilmişdir.

30 iyul 1948-ci ildə Azərbaycan SSR Kinematoqrafiya naziri tərəfindən Rəsul Rzaya göndərilən məktubda həmin filmlərin adları müəyyənləşdirilmişdir.

Təəssüflər olsun ki, həmin məktubun tam mətnini əldə etmək mümkün olmadığından, bu ixtisar edilən ssenari və filmlərin heç də hamısının adını müəyyənləşdirə bilmədik. Lakin siyahıdan çıxarılan 10 filmin adı və onların hazırlanmasına sərf olunmaqla silinən vəsaitin həcmini müəyyənləşdirə bildik. Bunlar aşağıdakılardır:

“Abdulla Şaiqin ssenarisi üzrə “Vətən” filmi (70 min rubl. sərf olunub);

Mikayıl Rəfilinin ssenarisi üzrə “Şirvanşah İbrahim” filmi (çəkilişi üzrə müqavilə 1943-cü il mayın 25-də imzalansa da, onun hazırlanmasına yalnız 53195, 82 rubl vəsait ödənilmişdir), (bu filmin təbliğat vasitəsi kimi çəkilişinə

müharibə illərində ehtiyac duyan sovet ideologiyası, müharibədən sonra onun çəkilişini lüzumsuz hesab etmişdir);

Kemerski və Qulubəyovun ssenarisi üzrə "Dənizdən gələn külək" (yəni Xəzri) filmi (2000 rubl sərf olunub);

Şairə Natəvan haqqında materiallara 5000 rubl sərf olunub;

Şairlər A. Səhhət və Sabir haqqında materiallara 6000 rubl sərf olunub;

A. Nəsibovun ssenarisi əsasında "Səadət" (7500 rubl sərf olunub);

Şveytserin ssenarisi əsasında "Xanbulaq" filmi (6750 rubl sərf olunub);

M. Əlizadənin ssenarisi üzrə "Yeni adamlar" (5200 rubl sərf olunub) filmləri üzrə iş dayandırılmışdır". Həmin filmlərin çəkilişinin dayandırılması onların ssenarilərinin aşağı ideya-bədii səviyyədə olması ilə əsaslandırılmışdır.

Bunlardan əlavə C. Cabbarlının ssenarisi üzrə çəkilməsi nəzərdə tutulan "Gözəllik haqqında poema" filminin çəkilişi də ləğv edilmişdir (12617 rubl sərf olunmuşdur) [8; s. 168].

**Ədəbiyyat siyahısı:**


1. Тагизаде, И. С. Кино и время. - Баку: Азгосиздат, -1981, -127 с.
2. Kazımzadə, A. Bizim "Azərbaycanfilm" (1923-2003). - Bakı: Mütərcim, -2004,
- 476 s.
3. Курбанов, М. К. Культура Советского Азербайджана. - Баку: Азгосиздат, -1959, -137 с.
4. Рзаева, М. З. Документальное кино Азербайджана (1920-1965). - Баку: Элм, -1971, -182 с.
5. Дробашенко, С. В. Документальная кинематография 1941-1945 годы: Очерки истории советского кино. В 3-х, Т. II. М. : Искусство, -1959,- с. 559-610.
6. Azərbaycan kinosu. Filmlərin izahlı kataloqu. 1898-2002. 2 cilddə, II c. , Xronikal- sənədli, elmi-kütləvi, sifariş və tədris filmlərinin izahlı kataloqu. - Bakı, Azərnəşr, 2003, 374 s.
7. ARDA, f. 2928, s. 1, iş 115.
8. DƏİA, f. 330, s. 2, iş 18.
9. http://wapedia. mobi/az/Kateqoriya:1941-ci_il_filmləri
10. http://wapedia. mobi/az/Kateqoriya:1942-ci_il_filmləri
11. http://wapedia. mobi/az/Kateqoriya:1943-cü_il_filmləri
12. http://wapedia. mobi/az/Kateqoriya:1944-cü_il_filmləri
13. http://wapedia. mobi/az/Kateqoriya:1945-ci_il_filmləri

**Исраиль Бахрам оглы Магеррамов Ровшан**
**Шамиль оглы Гулиев**

## О СЪЕМКАХ ДОКУМЕНТАЛЬНЫХ ФИЛЬМОВ В АЗЕРБАЙДЖАНЕ

**Резюме:** В статье говорится о деятельности Бакинской киностудии в 1939-1945 годах в области снятия документальных и хроникальных лент в Баку и на фронте, о снятии азербайджанскими операторами и режиссерами сцен военных действий против немецко-фашистских захватчиков в горячих точках, об увековечивании героизма советских солдат. Советская власть и партийное руководство, главным образом, использовало снятые ленты в пропагандистских целях.

**Ключевые слова:** Бакинская киностудия, документальный фильм, документальное кино, хроникальный фильм, киножурнал, кинопублицисти- ка, кинохроника, документально-хроникальная лента и др.

**Israil Bahram oghlu Maharramov Rovshan**
**Shamil oghlu Guliyev**

## ABOUT THE FILMING OF DOCUMENTARIES IN AZERBAIJAN

**Summary:** The article talks about the activities of the Baku Film Studio in 1939-1945 in the field of filming documentaries and chronicles in Baku and at the front, about the filming by Azerbaijani operators and directors of scenes of the struggle against the Nazi invaders in hot spots, about perpetuating the heroism of Soviet soldiers. The Soviet government and the party leadership mainly used the filmed tapes for propaganda purposes.

**Key words:** Baku film studio, documentary film, documentary cinema, film journal, film publishing, chronicle film, documentary-chronical tape etc.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06.05.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Əməkdar incəsənət xadimi, professor Əli Əmirli**